# Azərbaycan polisi daim ictimai asayişin keşiyində



**28 sentyabr 1921-ci il tarixində Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Bakıda milis məktəbi təsis edilib. Bu məktəbin açılması ölkəmizdə hüquq-mühafizə sisteminin formalaşması yolunda ilk ciddi addımlardan biri oldu. Bu gün Azərbaycan etibarlı tərəfdaş kimi dünya miqyasında tanınır, regionda mühüm iqtisadi layihələri uğurla həyata keçirir və hər bir sahədə sürətli inkişafa nail olur. Şübhəsiz ki, bu uğurların əsasını daxildəki sabitlik təşkil edir və bu stabilliyin qorunmasında ən böyük rolu polis orqanları oynayır. Polis əməkdaşları öz vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirərək ölkənin təhlükəsizliyini təmin edirlər.**

Ölkədə sabitliyin qorunub saxlanmasında Azərbaycan polisinin əvəzedilməz xidməti var. Daxili İşlər Nazirliyinin əməkdaşlarının peşəkar fəaliyyəti nəticəsində dövlətin sabitliyi qorunur və bu, ölkənin iqtisadi və siyasi inkişafına da müsbət təsir göstərir.

1969-cu ildə respublikamıza rəhbərliyə gəldikdən sonra ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının fəaliyyətində ciddi islahatlar aparmağa başladı. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar hüquq-mühafizə orqanlarının modernləşməsinə, daha peşəkar kadrların hazırlanmasına və sistemin güclənməsinə səbəb oldu. Məhz ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan polisi hüquqi dövlətin qurulması prosesində fəal iştirak etdi. Onun hüquq-mühafizə sistemindəki zəngin təcrübəsi, polis orqanlarına aşıladığı peşəkar bacarıqlar ölkənin təhlükəsizlik və stabillik təminatında mühüm rol oynadı və Azərbaycan polisinin tarixində əlamətdar bir səhifə açdı.

2002-ci ildə Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibətilə keçirilən tədbirdə Heydər Əliyev Polis Akademiyasının yenidən qurulmasına dair xüsusi tapşırıqlar verdi. Bu tapşırıqlar Akademiyanın sonrakı illərdə sürətli inkişafına təkan oldu və müasir təhsil standartlarına cavab verən bir təhsil müəssisəsinə çevirdi.

Daxili İşlər Nazirliyinin struktur qurumu kimi fəaliyyət göstərən Azərbaycan Respublikası Polis Akademiyası ölkəmizdə hüquq-mühafizə orqanlarının təməl daşı hesab olunur. Bu təhsil müəssisəsi ölkənin sabitliyi, təhlükəsizliyi və ictimai asayişinin qorunmasında əhəmiyyətli rol oynayan peşəkar polis kadrlarının hazırlanmasına xidmət edir. Akademiyanın tarixi kökləri isə XX əsrin əvvəllərinə gedib çatır. Milis məktəbi 1921-1936-cı illərdə Bakıda fəaliyyət göstərib, daha sonra Mərdəkan qəsəbəsinə köçürülüb. 1957-ci ildə isə təhsil müəssisəsi SSRİ DİN-in Bakı Xüsusi Orta Milis Məktəbinə çevrilib.

Məktəb yalnız yerli hüquq-mühafizə orqanları üçün deyil, eyni zamanda Gürcüstan, Dağıstan və hətta Rusiya kimi digər respublika və bölgələr üçün də ixtisaslı polis kadrlarının hazırlanmasında mühüm rol oynayıb. Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra, bu təhsil müəssisəsi daha da inkişaf edərək Azərbaycan Polis Akademiyasına çevrilib. 1995-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Akademiya I dərəcəli ali təhsil müəssisələri, 2010-cu ildə isə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə xüsusi təyinatlı təhsil müəssisələri siyahısına daxil edilib. Qeyd edək ki, hazırda Polis Akademiyasında müasir təhsil texnologiyaları əsasında ali təhsilin hər üç səviyyəsi - bakalavriatura, magistratura və doktorantura, əlavə təhsil proqramı üzrə isə ixtisasartırma, kadrların yenidən hazırlanması, təkrar ali təhsil üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Respublikanın ali hüquq təhsilinin dövlət təhsil standartlarına əsaslanaraq, xarici və respublika ali təhsil müəssisələrinin təcrübəsini və milli ənənələrin xüsusiyyətlərini nəzərə alaraq Polis Akademiyasının yeni tədris planı Təhsil Nazirliyi ilə razılaşdırılıb və DİN-in rəhbərliyi tərəfindən təsdiqlənib. Məlumdur ki, həyata keçirilən bütün tədbirlər nəticə etibarilə keyfiyyətli təhsilə nail olunmasına xidmət etməlidir. Polis Akademiyasının Elmi Şurasında mütəmadi olaraq müqayisəli şəkildə müzakirə olunan keyfiyyət göstəriciləri, mənimsəmə səviyyəsi onu göstərir ki, Akademiyada tədrisin keyfiyyəti ildən-ilə artır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, polis sisteminin inkişafına böyük töhfələr verir. 2003-cü ildən bəri ölkə başçısının rəhbərliyi ilə Daxili İşlər Nazirliyində aparılan islahatlar, hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığı və təhsil keyfiyyətinin artırılması sahəsində böyük uğurlara gətirib çıxarıb.

Azərbaycan polisinin xidmətləri yalnız respublikanın sabitliyinin və təhlükəsizliyinin qorunması ilə məhdudlaşmır. Ölkənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda aparılan Birinci və İkinci Qarabağ müharibələrində polis əməkdaşlarının fədakarlığı xüsusi vurğulanmalıdır. Hər iki müharibədə polis əməkdaşları respublikamızın ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşmüş və canlarını fəda etmişlər. Son olaraq, ötən il 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı daxili işlər orqanlarının on iki əməkdaşı şəhid olmuşdur. Bu fədakarlıq polis əməkdaşlarının vətənə və xalqa ən yüksək xidmət nümunəsidir.

**Musa BAĞIRLI,**
**"Respublika".**